**Lecture 9**

## A. Aristotelin əxlaq fəlsəfəsi (Etika)

Aristotelin əxlaq fəlsəfəsinin baş əsəri “Nikomaxos əxlaqı”dır. Doğru iş görmək, doğruya can atmaq...Doğru nədir? Elmdə bu elmi həqiqətdir, sənətdə gözəllikdir, əməldə isə yaxşılıq və ya fəzilətdir. “İnsan siyasi heyvandır” ifadəsi ilə Aristotel cəmiyyətin insan həyatında mühüm rolunu, onun insanın xoşbəxt və ya xoş həyat sürməsini təmin etmək vəzifəsini vurğulayır.Yəni Aristotel cəmiyyətin, siyasətin, dövlətin yaxşılığı ilə fərdin xoşbəxt olması arasında sıx əlaqə olduğunu deyir.

Aristotel əxlaqda məqsəd və vasitə arasında fərqi mühüm sayır, özü məqsəd, amac olan şeyə əxlaqı baxımdan üstünlük verir. Ən son məqsəd adətən xoşbəxt olmaq üçün qarşıya qoyulan məqsəddir.. Xoşbəxt olmaq insanın son məqsədidir (Epikurosda bu mötədil həzzdir), insan ondan o tərəfə bir şey istəmir. Aristotel insan qarşısında heç bir xüsusi bir vəzifə və ya borc qoymur, ancaq son məqsədi vurğulayır ( bu “son məqsəd” onun metafizikası ilə səsləşir). Kant`ın əxlaq fəlsəfəsində son məqsəd deyil, gedilən yoldakı yaxşı niyyət mühüm sayılır.

Aristotel hər insanın öz məsləyinə, sənətinə, bacarığına uyğun işləri bir kənara qoyanda onun bir insan kimi işinin nə olduğu sualını qoyur. Sadəcə yaşamaq bütün canlılara xasdır, insan isə ağıllı, düşünən heyvan olduğu üçün, onun işi “ruhun ağla uyğun fəaliyyətidir” və bunu ömrü boyu etməlidir. Bəs pislik necə izah oluna bilər? Əməlin qaynağı ağıl və arzudur, daha doğrusu bir məqsədə can atan arzu və ağıldır (təkcə, ayrıca ağıl və təkcə, ayrıca arzu gücsüzdür). Ağıllı arzu fəzilətə, ağılsız arzu isə pisliyə aparır.

Aristotel iki cür fəziləti fərqləndirir: düşüncə (zəka) fəzilətləri və əxlaqi fəzilətlər. Birinciyə ağıllı ruhdan (elm, sənət, praktik müdriklik/hikmət, fəlsəfə, ...) , ikinciyə arzu və ya iştahdan qaynaqlanan fəzilətlər (comərtlik, qürur, cəsarət, ədalət, mötədillik, dostluq, sevgi,...) daxildir. Düşüncə fəzilətləri öyrənmə yolu ilə qazanılır, əxlaqi fəzilətlər isə adət və alışqanlığın, onları həyatda tətbiq etmənin nəticəsində əldə edilir, yəni xarakteri, xasiyyəti əməl və fəaliyyət formalaşdırır. Əxlaq nəzəri bilik deyil, praktika mühümdür; fəzilətin nə olduğunu bilmək azdır, əsas fəzilətli olmaqdır. Əxlaqlı əməlin məcburi deyil, şüurlu olaraq baş verməsi mühümdür. İnsan seçir, tərcih edir; bu, məqsəd deyil, vasitədir. İnsan mümkün olanlardan seçir.

Sokrates: heç kim bilərək pislik etməz. Pisliyin səbəbi bilgisizlikdir. Aristotel buna qarşı çıxır, yaxşı iş də, pis iş də əlimizdədir. Pislik edənlər ona görə qınanırlar ki, pislik etməyə bilərdilər. Sərxoş adam pis iş görərkən ola bilər ki, bilmədən etsin, lakin sərxoş olmamaq onun əlində idi, sərxoş olarkən pis iş görə biləcəyini bilirdi. Yəni pislik etmənin səbəbi bilgisizlik deyil.

Aristotel`in əxlaq fəlsəfəsini səciyyələndirən cəhətlərdən biri "qızıl orta"dır. Həzz almaq, pul xərcləmək (xəsis və pulu göyə sovuran), qorxmaq kimi keyfiyyətlərin çox az olması da, həddindən çox olması da yaxşı deyil. Əlbəttə ki, qızıl orta deyilən şey mütləq deyil, müxtəlif səbəblərə görə nisbi, dəyişəndir (və bəzən çətin tapılandır-H.İ.). Qızıl orta həmçinin pis şeylər üçün deyil ("orta oğru" kimi).

Aristotel ədalət anlayışına xüsusi önəm verir, onu hər şeydən üstün tutur, hər şeyin onun içində olduğunu deyir. Ədalət anlayışı əxlaqla siyasət arasında yaxın əlaqə olduğunu vurğulayır. Ədalət cəmiyyətə, siyasətə ən çox bağlı olan xüsusiyyətdir. Adil insan qanuna və haqqa (doğruya) uyandır. Aristotel ədaləti bölüşdürücü və düzəldici/mübadiləçi deyə iki sinfə ayırır. Bölüşdürücü sərvətin və şərəfin düzgün bölüşdürülməsidir. Düzgün-demokratik quruluşda, yəni insanların azad və bərabər sayıldığı yerdə cəmiyyət üzvləri arasında bərabər bölüşdürmə deməkdir, oliqarx quruluşda isə cəmiyyətdəki mövqeyə, "səviyyə"yə mütənasib bölgüdür. Bu ədaləti dövlət təmin etməlidir. Düzəldici ədalət vətəndaşlar arasında zərər və haqsızlıqların aradan qaldırılmasıdır, bu, bəzən orta yolu tapmaqla deyil, bərabərsizliyin cəza tətbiq etməklə aradan qaldırılma cəhdidir (məsələn, adam öldürənə cəza verilir). Bu ədaləti isə məhkəmə təmin edir.

Aristotel insanların öz aralarında iş bölümü (ixtisaslaşma) və mübadilədə olduqlarını deyir (mübadilə ədaləti). Uyğun, yəni iki malın, iqtisadi dillə desək, tələb və təklif əsasında bərabər dəyərinə görə mübadilə olunmasını mübadilə (alış-veriş) ədaləti adlandırır. Burada tam ədaləti təmin etmək olmur, ədaləti təmin edən şəxs və ya qurum yoxdur.

Övlad valideyni ilə, arvad əri ilə bərabər deyil, ikincilər birinciləri daha çox sevməlidirlər. "Qul canlı alət" olduğuna görə ağa ilə qul dost ola bilməzlər, ancaq insan kimi qulla dost olmaq olar (?). Aristotel məğrur, qürurlu, əzəmətli insanın ləyaqətindən, mənəvi kamilliyindən söz açır; o, səsi və nitqi ilə seçilir, demək olar ki, ehtiyac hiss etmir, amma başqalarına xeyrxahlıq edir, xasiyyəti və davranışı açıqdır - dostluqda da, zəhləsi getmək və nifrətdə də, lakin kütlə qarşısında sünilik və ya hiyləgərlik

istisnadır (burada siyasət mənəviyyatı üstələyir-H.İ.). Həzz və xoşbəxtlik üçün bir mühit olmalıdır, bədbəxtliyə düçar olan adamın həzz alması çətin işdir. Ən böyük həzz zəka fəaliyyətinin verdiyi həzzdir, ən yüksək səadət ağlın məhsuludur. Seyrçilik hər növ fəaliyyətdən, o cümlədən siyasət və əməli işlərdən üstündür, o, xoşbəxtlik üçün zəruri olan asudə vaxt bəxş edir. Ümumiyyətlə, Aristotel`in etikası sanki nikbin və həyatın üst təbəqəsində yerləşmiş insanlara ünvanlanıb.

Aristotel nəzəri biliyi, elmi praktik bilikdən (o cümlədən siyasətdən) üstün sayır və xoşbəxtliyi nəzəri fəaliyyətlə bağlayır. Praktik fəzilətlərin faydası onların nəzəri fəzilətlərə yardımçı olmasındadır. Nəzəri düşüncə sahibinin öz düşüncə və seyretmə həyatında başqa insanlara və şeylərə ehtiyacı yoxdur. Düşüncə həyatı ən mükəmməl və xoşbəxt həyat, filosof ən mükəmməl və xoşbəxt insandır. Əxlaqi fəzilətlər də xoşbəxtliyi artırır (ikinci dərəcədən olsa da). Maddi və fiziki şərtlər, dostların olması da lazımdır. Ümumiyyətlə isə, “xoşbəxt insanın çox şeyə ehtiyacı yoxdur”.

## B. Aristotelin siyasət fəlsəfəsi

Aristotel öz dövlət və insan problemini “Politika” və həmçinin “Nikomax etikası” əsərində şərh etmişdir (əslində “Nikomax etikası” və “Politika” bir əsərin 1-ci və uyğun olaraq 2-ci hissəsi kimi düşünülmüşdü). Əxlaq fəlsəfəsi və siyasət fəlsəfəsi qarşıya qoyduğu suallar baxımından doğrudan da bir-biri ilə sıx bağlıdırlar. İnsan cəsur, ağıllı, ədalətli və fərasətli olmalıdır. Ədalət ümumi xoşbəxtlik deməkdir, bunu əldə etmək üçün qanunlara əməl etmək və hakimiyyətə tabe olmaq zəruridir. Ünsiyyət arzusu və ondan daha önəmli olan ehtiyacların qarşılanması üçün qarşılıqlı köməyin zəruriliyi insanları növbə ilə ailə, kənd və dövlət qurmağa gətirib çıxarır. İnsan təbiəti etibarilə ictimai/ siyasi heyvandır. İctimai olmayan ya insanlıqdan aşağıdadır (yəni heyvandır), ya da insanlıq üstündədir (yəni Tanrıdır). İnsanlar birlikdə ancaq yaxşı dövlətdə xoşbəxt ola bilərlər. Bu səbəbdən dövlət ailə və fərdlərdən üstündür, öndədir –tam hissədən üstündür. Qanunsuzluqda insan heyvanlardan ən pisidir. Bununla yanaşı dövlət gəlirlərin ədalətli paylanmasını təmin etməlidir. “Dövlətin əsası birlik deyil, çoxluqdur”.

Aristotel şəhər dövlətini dövlətin ən düzgün forması sayır (mərkəzləşdirilmiş dövləti deyil).Yaxşı dövlət (dövlət başçısı) vətəndaşların ortaq maraqlarına xidmət edən, yəni ədalətli dövlətdir (adil dövlət başçısıdır). Dövlətin məqsədi vətəndaşlarına yaxşı həyat qurmaq, onların xoşbəxt olmasına çalışmaqdır; məqsəd həlledicidir. Dövlətə ən yaxşı xidmət edənlər dövlətdən ən çox pay almalıdırlar. Hakimiyyət məsələsində

Aristotel bərabərliyi deyil, ləyaqəti (layiq olmağı), azadlığı deyil, fəziləti əsas sayır.

Aristotelin nəzərincə siyasi quruluş üç hissədən ibarət olmalıdır: qanunverici, icraçı və məhkəmə sistemi. Hakimiyyətin kimin və ya kimlərin - bir adamın, azlığın və çoxluğun əlində olmasından asılı olaraq üç "düzgün", ümumi maraqlara xidmət edən quruluş – monarxiya(şahlıq), aristokratiya (nəcib insanların hakimiyyəti) və politiya/politeia (respublika) əmələ gəlir. Bunlar hər biri məqbuldur, hərçənd ki, monarxiya aristokratiyadan, aristokratiya politiyadan yaxşıdır. Aristokratiyada orta təbəqə mühüm yer tutur. Dövlətin idarəedilməsində orta təbəqə zənginlərdən və yoxsullardan yaxşıdır, çünki, lazım gəldikdə, zənginlərdən fərqli olaraq itaət etməyi və eyni zamanda, yoxsullardan fərqli olaraq əmr etməyi bacarır. Sərvətə əsaslanan hakimiyyət oliqarxiya, azadlığa əsaslanan hakimiyyət isə demokratiyadır.

"Düzgün olmayan", xüsusi maraqların əsas götürüldüyü halda isə uyğun olaraq tiranlıq, oliqarxiya (kasıbları nəzərə almayan zəngin azlığın hakimiyyəti) və demokratiya (zənginləri nəzərə almayan çoxluğun hakimiyyəti) alınır. Tiraniya Oliqarxiyadan pisdir. Aristotelin tiraniyaya münasibəti çox kəskindir - "oğrunu deyil, tiranı öldürənə eşq olsun"! Tiran hakimiyyətdə qalmaq üçün xüsusi qabiliyyətə malik insanların yüksəlməsinə hər cür (məhv etmək daxil olmaqla) mane olmalı (!?), xəfiyyələr saxlamalı, insanların bir yerə toplaşmasına mane olmalı, insanlar arasına nifaq salmalı, onların ictimai həyatını nəzarətdə saxlamalı, onların öz gündəlik qayğılarına bağlanmaları üçün və başqa düşüncələrə (məsələn, silahlanmaq fikrinə) qapılmamaları üçün yoxsul saxlamaqla və ya böyük miqyaslı işlərlə başlarını qatmalı olur. Tiran fəxri adları, şərəfləri özü paylayır, cəzaları isə başqalarının əli ilə edir.

"Düzgün olmayan" üçlüyün arasında demokratiyaya dözmək olar (yəni o, oliqarxiyadan yaxşıdır), bir şərtlə ki, hakimiyyət kütlənin deyil, qanunun əlində olsun (vətəndaşların toplusu qanundan üstündür; bu yaxşı deyil). Qanunların işləmədiyi çoxluğun hakimiyyəti ilə tiranlığın fərqi yoxdur. Oliqarxiyada hakimiyyətin atadan oğula keçməsi də mümkündür. Oliqarxiyada sərvət, Aristokratiyada fəzilət önə keçir. Demokratiyaya tənqidi münasibəti anlamaq üçün bir cəhəti nəzərdə tutmaq lazımdır: o dövrün yunan demokratiyası əsil seçkiyə deyil, püşkatmaya əsaslanırdı. Bu siyasi quruluş növlərinə bir qədər başqa deyilişdə Platonda da rast gəlinir. O dövr Yunanlı şəhər-dövlətlərə xas olan dövlət növləri oliqarxiya və demokratiya idi; ikinci daha geniş yayılmışdı.

Platonun dövlət modelində Aristotel birinci növbədə xüsusi mülkiyyətə qadağanı tənqid edir: "mülkiyyət haqqında adi fikir belə görünməmiş həzz verir". Mülkiyyətin xüsusi olması ilə yanaşı insanları xeyriyyəçilik etməyə çağırmaq olar. İnsani sifət olan xeyriyyəçilik və comərdlik xüsusi mülkiyyətsiz necə mümkün ola bilər?! Platonda ailənin ümumləşdirilməsi də Aristoteli əsəbiləşdirir; hamıya məxsus olana (mülkiyyət olsun, ya qadın və uşaqlar) kim qayğı göstərəcək?! Qohumluğun bilinmədiyi cəmiyyətdə cinayətlər, o cümlədən adam öldürmə, oğurluq qat-qat çox olardı. Platonun ortaqlıq cəmiyyətində güclü sevgi duyğuları ola bilməz, "ata", "oğul" kimi müraciətlər çox hərarətli ola bilməz. Aristotel "qadınlar ümumi olsa təsərrüfatı kim idarə edər" kimi bir qədər qəribə əsaslandırmalara da baş vurur. Mülkiyyət məsələsində bir şeydən istifadə olunma dəyəri əsasdır, onun başqa şeyə dəyişdirilməsi isə (yəni ticarət) ehtiyacla bağlı və ikinci dərəcəlidir.Lakin Aristotel qul məsələsində Platona nisbətən daha radikal mövqe tutur: "aydındır ki, öz təbiətinə görə bəziləri qul, digərləri azaddır", "bəzilərinə qul, digərlərinə ağa olmaq faydalıdır". Bəziləri anadan idarəetmə üçün, digərləri tabe olmaq üçün doğulublar. Təbiətlərinə görə tabe olmaq üçün yarananlar tabe olmayanda onlara qarşı savaş açmaq və onları məğlub edib qula çevirmək ədalətli işdir. Qulları yunan olmayanlar arasından almaq doğrudur (yunanlar təbiət etibarilə qul deyillər).

Varlanmaq üçün doğru yol torpaqları və ev təsərrüfatını idarə etməkdir. Ticarət və sələmçilik zənginləşmək deyil, pul yığmaq üçündür, bu səbəbdən də tacirləri haqlı olaraq sevmirlər.

Aristotel ideal dövlət (şəhər) üçün müəyyən kəmiyyət və keyfiyyətin vacibliyini deyir; əhalisi (nə çox az, nə həddindən çox), coğrafi və təbii şərtləri, xarakteri (yunanlar avropalı və asiyalılardan daha uyğun) barədə fikir söyləyir. İdeal dövlətin vətəndaşları savaşçılar, din adamları və idarəedənlərdir. Əkinçilər, sənətkarlar (işçilər) və tacirlər vətəndaş deyillər (!?). Torpaq üzərində mülkiyyət hüququ hərbçilərə və idarəedənlərə verilir, onları işçilər və qullar işlədəcək.

İnsanın təbiəti, alışqanlıqları və ağlı var. Doğuşdan yaxşı olma və ağıl alışqanlıqlara məruz qalıb pozula bilərlər. Bu səbəbdən vətəndaşların təhsili çox mühümdür. Bətəndaş tərbiyəsində həm qanunlara uymaq, həm də qanunlar yaratmaq və idarəetmək vərdişləri nəzərdə tutulmalıdır. Əvvəl bədən tərbiyəsi, sonra ruhun tərbiyəsi, daha sonra ağlın tərbiyəsinə fikir vermək lazımdır. Təhsil vacib olduğu üçün ailənin deyil, dövlətin işidir. Platon kimi Aristotel də təhsildə və dövlətdə nə zaman, harada və necə işlər görəcəklərini təfsilatı ilə təsvir etməyə çalışmışdır (oxu materialları; rəsm və

musiqi növləri; kimin nə vaxt kiminlə evlənəcəyi-kişilər 37-də, qadınlar 18-də; uşaqların nə vaxt doğulması və onların hansılarını öldürməyib sağ saxlamaq, dövlətin ölçüləri-nə çox böyük, nə çox kiçik -əslində isə Aristotelin dövlət ölçüləri kiçikdir: bir təpənin başından baxanda görünsün...).

İnqilabların qarşısını almaq üçün üç şeyə fikir vermək zəruridir: dövlət təbliğatı, qanuna (xüsusilə konstitusiyaya) böyük hörmət və ədalət ("hər kəsə ləyaqətinə görə"). İdarəedənlərin uzun zaman hakimiyyətdə olmaları və hədsiz güc qazanmaları təhlükəlidir. Demokratik quruluş oliqarxiya ilə müqayisədə inqilablara qarşı daha dayanıqlıdır (xalq deyilən çoxluq onun tərəfindədir). İnqilabın səbəbi aşağıda olanların bərabərlik arzusu, bərabər olanların isə üstün olmaq (bərabərsizlik) arzusudur. İnqilabın baş verməsi müxtəlif hisslərlə bağlıdır: qazanc, qorxu (haqsızlıq ediləcəyi və ya cəzalandırılmaq qorxusu), aşağılanmaya qarşı müqavimət, dövlətin müəyyən təbəqəsinin ifrat dərəcədə böyüməsi. Bərabərsizlik duyğusu insanları üsyana çağıran ən böyük qüvvədir. Ən böyük cinayətlər ehtiyacdan deyil, artıqlıq/bolluq üzündən baş verir.

## C. Aristotelin sənət fəlsəfəsi

Əvvəlcə Platonun sənət haqqında fikirlərinə baxaq (əsasən "Dövlət"dən). Platon sənəti (təsviri, ədəbi, digər...) təqlid və ya təmsil olaraq şərh edir. Hisslər dünyasında var olan insan və ya əşyalar ideyaların surəti, təqlidi, təmsili olduğu kimi, insanın yaratdığı əsər də hisslər dünyasında var olanların surəti, təqlidi, təmsilidir. Beləliklə, sənət əsəri təqlidin təqlididir. Sənətçi/sənətkar təqlidçidir, hətta bir hoqqabazdır, bir oyunçudur; o, gerçək bir bənzər və ya saxta bir bənzər yarada bilir. Bu, Homeros da daxil olmaqla şair və yazıçılara da aiddir. Sənətin faydası yoxdur, sənət insanları həqiqətdən uzaqlaşdırır. Sevgi isə, Platona görə, sənətdən fərqlidir, sevginin kökündə ölümsüzlük dayanır; Sevgi dünyaya yeni insan gətirməklə ölümsüzlüyə (insan növünün davamlılığına) töhfə verir. Elm yaradıcı fəaliyyətin, arzunun daha üstün növüdür. Amma sənət də maraq doğurur, çünki ağlımıza deyil, duyğularımıza təsir göstərir, dəyişkən, coşub-daşan, iradəsiz, qorxaq, gülünc, süst tərəfimizə təsir edir. Şair və yazıçıların təsvir etdikləri əxlaqsız davranışlar, tanrılara və qəhrəmanlara qarşı hörmətsizliklər xalqın tərbiyəsini pozur. Sənət əxlaqa xidmət etməlidir.

Aristotel sənəti, xüsusilə şeir, tragediya və komediyanı təhlil etdiyi "Poetika" əsərində sənətin təqlid olduğunu deməklə Platonu izləsə də, o, sənəti aşağılamır, onun gözəl və faydalı olduğunu irəli sürür. Aristotelə görə

sənət tək maddi həqiqətin deyil, bir çox hallarda insan duyğularının əksidir, təqlididir, daha doğrusi təmsilidir. İnsan ilk bilikləri təqlid yoluyla alır, təqlid sayəsində bilik qazanır. Tarixlə şeir arasındakı fərq birinin nəsrlə, digərinin nəzmlə yazılması deyil, tarixin olmuş şeyi, şairin isə mümkün ola biləcək şeyi təsvir etməsidir. Şeir daha fəlsəfi və daha faydalıdır; tarixçi fərdi (ayrı-ayrı adamları və hadisələri), şair isə daha bütöv, daha ümumi olanı təsvir edir. Bu səbəbdən şeir tarixlə müqayisədə daha bilik yönlüdür, hərçənd ki, bu bilik fəlsəfə və ya elmi bilikdən daha aşağı səviyyədədir. Şair tarixi hadisəni və ya şəxsi tarixdə olduğu kimi təsvir etməyə məcbur deyil, o, tarixçi deyil, şairdir.

Sənətin məzmun qədər forma gözəlliyi də vacibdir və onun cəlbediciliyi bu gözəlliyə də borcludur. Sənətin əxlaqi tərəfi, ruhlandıran, zövqü oxşayan həyəcanlı tərəfi də var. Aristotel musiqini digər sənət növlərindən ayırır (həqiqətən, var olanların təqlidi`ndən), onu duyğuların, ruh hallarının təqlidi sayır. Nəzəriyyənin məqsədi elm, praktik (praksis; əxlaq və siyasət) fəaliyyətin məqsədi yaxşı həyat sürmək, sənət əsərini meydana çıxaran poeisis`in (və ya texne`nin) məqsədi isə gözəl və faydalı şeylər yaratmaqdır. Uşaqlara keçilən dərslər dörd növdür: oxuma-yazma, bədən tərbiyəsi, rəsm və musiqi. Oxuma-yazma və hesab kimi şeylər faydalı, oyun və əyləncələr həzzvericidir. Musiqi isə həzz versə də, əsas xüsusiyyəti xarakter və zehnə güclü təsir etmə qabiliyyətidir. Musiqi həm də ehtiraslardan təmizləmə (katarsis) işi görür, könül xoşluğu və rahatlıq duyğusu, estetik həzz verir (musiqinin bu saflaşdırma xüsusiyyətini "Politika"da göstərib). Musiqi və digər sənətlər insana insani hissləri yaşamaq imkanı verir, bu mənada onu təmizləyir, insanilәşdirir. Platon tragediyanın insanı duyğulu edib zəiflətdiyini deyirdi, göründüyü kimi Aristotel bunu tərsini irəli sürmüşdür. "Poetika" əsərində Aristotel tragediyanın təhlil üzərində xüsusi dayanmışdır.

Aristotel Platon Akademiyasında ritorika/xitabət (gözəl və təsirli danışma sənəti) dərsləri verirdi. "Ritorika" kitabını da, yəqin ki, bu dərslərin təsirilə yazmışdı. Demokratik Afinanın həyatında ritorika (inandırma vasitələrindən istifadə, danışıq, xitabət sənəti, məharət - Aristotel) önəmli yer tuturdu. İsokrates`in ritorika məktəbi ilə Akademiya arasında bir rəqabət də vardı. Ritorikada induktiv və deduktiv yanaşma, misallara, örnəklərə dayanan və müqayisələrə əsaslanan üsullar tətbiq olunur. Ritorikanın bir önəmi də xüsusi təhsili olmayan insanları da məlum anlayışlardan istifadə etməklə inandırmaq, həmçinin ağıl vasitəsilə müdafiə olunmaqdır. Natiq inandırmaq üçün məntiq və etika üzrə biliklərə sahib olmalıdır. Aristotel üç növ xitabət var deyir: siyasi, hüquqi, mərasimlə bağlı nitqlər. O, həmçinin natiqin

xarakteri, dinləyicilərin ruhi vəziyyəti və xitabət mövzusunun xüsusiyyətlərini araşdırmışdır. Həm də psixoloji bir əsər olan "Ritorika"da Aristotel yaş psixologiyasına baş vurur, gənc, orta yaşlı və yaşlıların xarakteristik cizgilərini verir. O, kübarlar (soylu doğum; məğrur), zənginlər (saymazyana, özünügöstərmə, başqalarına qarşı həssas olmayan,...) və güclülərin də surətlərini cızır. Nitq inandırıcı olmaq üçün ölçülü və təbii olmalıdır.

## D. Makedoniyalı Aleksandr. Hellenizm

Makedoniyalı Aleksandr (-356, -323) və ya Böyük Aleksandr güclənməkdə olan Makedoniya hökmdarı II Filip`in oğludur. 3 il Aristotel ona (və onun yaxın ətrafında olanlara) dərs vermiş, Aleksandr 16 yaşa çatanda dərs dayandırılmışdı.

Aleksandr 20 yaşa çatanda atası öldürüldü və o, hakimimiyyətə gəldi ("-334"). Təqribən iki il sonra dünyanın, daha doğrusu Şərqin və qismən Cənubun fəthinə girişdi. Kiçik Asiya və Persiya yürüşü, Orta Asiya və Hindistan hərbi səfərləri 10 il sürdü. Bu müddətdə təqribən 20 şəhər təsis etdi, o cümlədən (və ən mühüm olan) Aleksandriya şəhərinin, həmçinin indiki Qəndəhar`ın əsasını qoydu" bu şşəhərlərin hamısını Aleksandriya adlandırmışdı... Baktriyalı bir kübarın qızı Roksana ilə, həmçinin öldürülmüş Persiya şahı Darius`un qızı ilə evləndi. Get-gedə Persiya monarxlarının həyatına bənzər yaşamağa başladı, özünü Şahənşah adlandırdı, əl öpmək adətini tətbiq etdi. Bu yunan-makedoniya aristokratlarının etirazına səbəb oldu, xüsusilə tarixçi Kallisfen (onu Aleksandra Aristotel təqdim etmişdi) açıq etiraz etdi. Həbsxanaya düşən Kallisfen orada öldü, mümkündür ki, Aleksandr`ın əli olmadan. Aleksandr pers qızları ilə evlənin siyasətini həyata keçirməyə çalışırdı; bir dəfəyə sərkərdə və əyanlardan təqribən 80 nəfərini bu qayda ilə evləndirdi. Orduda da bu meyl vüsət aldı (kişilərdən ibarət ordu yerli qadınlarla evlənməkdən qaçmaq istəmirdi...). Babildə Aliksandr 33 yaşında ikən öldü. Ölümü haqqında çox rəvayətlər danışıldı, bəlkə ona zəhər verilmişdi (?!). Bu gün də bu məsələ tədqiqat mövzusu kimi ortadan qalxmayıb. Aleksandrın sevimli sərkərdələrindən Ptolomey (Soter) tabutu oğurlatdı, Memfisə, sonunda Aleksandriyaya aparıb orada dəfn etdirdi. Bir sıra Romalı məşhurlar Aleksandrın qəbrini ziyarət etdikləri barədə yazmışlar. Sonra Aleksandrın qəbrinin harada olduğu haqqında məlumat yox oldu...

Aleksandr Qərbi və Şərqi birləşdirdi, Hellenistik dövr başlandı. Aleksandrdan sonra onun sərkərdələri imperiyanı idarə etmək uğrunda savaşa qalxdılar. Diodoxların-bu sərkərdələrin səyi nəticəsində İmperiya dörd hissəyə parçalandı: Selevklər, Ptolomeylər, Perqamum və Yunanıstanı içinə alan Makedoniya. Hellenizm/Helenistik dövr-təqribən 3 əsr davam etdi ”-330”-dan Romanın bu əraziləri fəth etdiyi ”-30”-a qədər.

Hellenizm dövrü elmin çiçəklənməsi dövrü kimi səciyyələndirilə bilər.